# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

**Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək**



**Prioritet sahə:**

Partnership that protects, Governance & public administration

**Əlaqə nömrəsi (CRIS):** 392-691

**İcra müddəti:** 17.01.2018 - 17.05.2020

**Aİ-nin maliyyə yardımı:** € 1 200 000

**Ümumi büdcə:** € 1 200 000

**İcraçı təşkilat(lar):**

Independent authority for Public Revenue, Centre of International and European Economic Law (CIEEL)

**Sosial media hesablarına keçidlər:**

https://twitter.com/AzGrTransfPric,
https://www.facebook.com/twinazergreeceTax/

**Internet səhifəsi:** http://twinning.taxes.gov.az

**Layihənin təsviri:**

Yunanıstan Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış müqaviləyə əsasən, 17 yanvar 2018-ci il tarixdə başlamış və 28 ay davam etmiş "Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə Dəstək" Tvinninq layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirilərək 2020-ci il 17 may tarixində başa çatıb. Layihə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Yunanıstan Respublikasının Dövlət Gəlirləri üzrə Müstəqil Orqanı, həmçinin Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzi (CIEEL) tərəfindən həyata keçirilib. Layihənin məqsədi transfer dəyəri üzrə qanunvericiliyin və transfer qiymətləri üzrə auditin tətbiqi və həyata keçirilməsində, eləcə də transfer qiymətləri haqqında qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması və qabaqcıl praktikaya əsaslanan audit prosesləri üçün resursların yaradılmasında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək göstərməkdən ibarət olub.

**Gözlənilən nəticələr:**

- Transfer dəyəri üzrə qanunvericiliyinin Avropa İttifaqı standartlarına uyğun hazırlanması;
- Transfer qiymətləndirməsi sahəsində “Qiymətlərin əvvəlcədən müəyyən edilməsi” və "Qarşılıqlı Razılaşma Prosedurları" sisteminin hazırlanması;
- Avropa İttifaqı standartlarına uyğun olaraq transfer qiymətləndirməsinin tənzimlənməsi sahəsində inzibati nəzarət mexanizmlərinin yaradılması və bu sahədə Vergilər Nazirliyinin institusional potensialının artırılması.

**Tədbir siyahısı (son üç tədbir):**

Closing event/teleconference
Steering Committee Meeting No.9
Kick off event